# Gəncəbasarda Almanlar

Müəllif: Günel Məmmədova
24.01.2013 01:22



1804-cü ildə Rus imperiyasının işğalından sonra Gəncə xanlığı ləğv edilərək bir dairə kimi imperiyanın tərkibinə ilhaq olundu. Rus işğalından sonra çar hökumətinin tələbiylə Gəncə dairəsinə müxtəlif millətlərin köçürülməsinə başlandı. 19-cu əsrin 1-ci yarısında Gəncə şəhəri və Gəncəbasar əhalisinin tərkibi müxtəlif idi. Burada yerli əhaliylə yanaşı buraya köçürülmüş ruslar, ermənilər, yəhudilər, ləzgilər və almanlar da vardır.

Gəncə mahalında Alman kolonistləri əsasən Gəncə çayının sağ sahili boyunca indiki Göygöl rayonuna kimi olan ərazidə və Şəmkir rayonunda yaşamışlar. 1818-ci ildə Şəmkirə köçürülən Vürtemberq almanlarına mahalın ən məhsuldar yeri hesab olunan torpaqlar verilmişdir ki, bu torpaqların da çoxu Şəmkir sultanlarının nəslindən olan Böyük ağaya mənsub idi. Şəmkirdə məskunlaşmış almanlar Gəncə şəhərinin 20 verstliyində, Şəmkir çayının sahilində Annenfeld koloniyasını salmışdılar. Həmin illərdə Gəncəyə köçürülmüş almanların digər bir qrupuna Gəncəbasarda ən məhsuldar yer sayılan, vaxtilə Cavad xana məxsus olmuş torpaqlar verilmişdi. Onlar Gəncənin 7 verst güneyində indiki Göygöl rayonunda koloniya salmışdılar və 1819-cu ildə koloniyanı böyük knyagina Yelenanın şərəfinə Yelenendorf adlandırmışlar. Gəncə almanları 1941-ci ilə kimi bu mahalda yaşamışlar. 1897-ci il məlumatına görə Gəncə vilayətində almanların sayı 4 min nəfərə çatırdı.

Almanlar əsasən üzümçülüklə məşğul olmuşlar. Gəncə üzümündən hazırlanan şərablar Almaniyaya və digər Avropa ölkələrinə satılırdı. Öz işlərinin ustası olan almanlar az müddət ərzində öz nüfuzlarını qazanaraq, böyük mənfəət qazanmışlar. Eyni zamanda almanlar özlərinə məxsus yüksək mədəniyyətlərinin Gəncəyə inteqrasiya olunmasında böyük xidmət göstərmişlər. Gəncədə texniki tərəqqinin yüksəldilməsində və əhalinin maddi mədəniyyətinin inkişafında xidmətləri əvəzolunmazdır. Elektrik dəyirmanlarının qurulması, şəhər teatrının və sinematoqrafiya binalarının inşası Gəncədə böyük bir mədəni inqilabın əsasını qoymuş və sənət

adamlarının yetişməsində böyük rol oynamışdır.

Yaşadıqları dövr ərzində alman kolonistləri sənaye sahəsində də böyük işlər görmüşlər. Gəncəbasarın o vaxtki tarixini səhifələsək, Forer, Hummel və Simens qardaşlarının Gəncənin iqtisadiyyatında qazandıqları nailiyyətləri görə bilərik.

1883-cü ildə Gəncədə Forer qardaşları tərəfindən ikinci Buxar dəyirmanının əsası qoyuldu. 1902-ci ildə isə Forerlərin dəyirmanında İsveç maşınları yerləşdirildi. Bu dəyirmanda üç növdə istehsal olunmuş un nəinki şəhərin özündə, eyni zamanda başqa şəhərlərdə də satılırdı. 1905-ci ildə Forer qardaşları tərəfindən yeni bir sənaye müəssisəsinin, Rektifikasiya spirti istehsal edən zavodlardan birinin əsası qoyuldu. Yelenendorf alman koloniyasında fəaliyyətə başlayan "Forer və oğlanları" şirkətinin Gəncənin də iqtisadi həyatında böyük rol oynamışdı. 1913-cü ildə qardaşlar şirkətin əsasında "Forer qardaşları" ticarət evini yaratdılar. Qardaşların təkcə Gəncə şəhərində rektifikasiya spirti zavodunun 10-a yaxın anbar və zirzəmisi, eləcədə Gəncə Dəmiryol stansiyasında Forerlərin 6 şöbədən ibarət şərab satışı zirzəmisi var idi. O dövrdə Gəncədə Zərrabi məhəlləsində XIX əsrin ortaları üçün yeganə teatr binası olan "Forer" şəhər teatrı da fəaliyyət göstərirdi. Həmin teatr hazırda C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrı kimi fəaliyyət göstərir və dövlət tərəfindən qorunur.

Gəncədə burjuaziya formalaşdıqca böyük nüfuz qazanmış Forer qardaşları və Hummel qardaşları yeyinti məhsulları istehsalının müxtəlif sahələrini öz əllərinə almışdılar. 19-cu əsrin əvvəllərində Gəncə qəzasına köçmüş alman kolonistlərindən olan Hummel qardaşları 1900-cü ildə Yelenendorfda "Hummel qardaşları" ticarət evində fəaliyyət göstərirmişlər. Onların Gəncəbasarda və Rusiyanın bir sıra şəhərlərində şərab-konyak istehsalı ilə məşğul olan müəssisələri və istehsal sahələri vardır. Lakin sonradan "Hummel qardaşları" ticarət evinə məxsus sənaye müəssisələri və torpaq mülkləri 1916-cı ildə yaradılmış "Zaqafqaziya şərabçılığı" səhmdar cəmiyyətinə satılmışdır. Forer və Hummel qardaşları ilə yanaşı Gəncə dairəsinin sənaye tarixində Simens qardaşlarının da böyük izləri vardır. 19-cu əsrin 50-ci illərində Simens qardaşları öz şirkətlərini yaratdılar. Simens qardaşları şirkətinin əsas sənaye müəssisələri Gədəbəy rayonunda idi. Gədəbəydə kəşf edilmiş mis filizi əsasında yaradılan Gədəbəy Mis Əritmə Zavodu sonralar Simens qardaşlarının əlinə keçmişdir. 1883-cü ildə isə Qalakənd Mis Əritmə Zavodu yaradılmışdır. Gədəbəy-Qalakənd zavodlarında istehsal olunan mis məhsulları və qızıl-gümüş Rusiya bazarlarına çıxarılırdı.

Müəllif: Günel Məmmədova
24.01.2013 01:22

